## *Prezident İlham ƏLİYEV:*

# Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir




**Oktyabrın 15-də Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünün ən yaddaqalan məqamlarından biri bu oldu ki, tədbirdə iştirak edən bütün dövlət başçıları qardaş ölkələr arasında siyasi, iqtisadi, mədəni, mənəvi əlaqələrin daim inkişaf etdirilməsində maraqlı olduqlarını, inteqrasiyanın gücləndirilməsi istiqamətində real addımlar atılmasının vacibliyini önə çəkdilər.**

Artıq məlum olduğu kimi, türkdilli dövlətlər arasında Naxçıvan Sazişinin imzalanmasının 10-cu ildönümünə həsr edilmiş görüş bütün qardaş ölkələrdə maraqla izlənildi. Ümumiyyətlə, qədim köklərə malik xalqlarımızın möhtəşəm birliyinin yaranması hamımıza hədsiz sevinc bəxş etdi. Türk birliyi və həmrəyliyinin möhkəmlənməsində çox mühüm rolu olan və bu məsələyə hər cür dəstək verən ölkələrdən biri, bəlkə də birincisi Azərbaycandır. Bu fikri təsdiq etmək üçün uzağa getməyə ehtiyac yoxdur, elə Azərbaycan Prezidenti İlham Əliyevin sammitdəki nitqinə nəzər yetirmək kifayətdir. Prezident bildirdi ki, Azərbaycan ölkələrimiz arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində həmişə öz səylərini göstərib və gələcəkdə də göstərəcəkdir. Onun sözlərinə görə, bizi birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Eyni zamanda, türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

Bununla yanaşı, dövlət başçımız Azərbaycanın tarixi torpaqlarını itirmək kimi ağır və faciəli problemlə qarşılaşdığını qardaş ölkələrin diqqətinə bir daha təqdim etdi. Bu, əlbəttə, zahirən Azərbaycanın problemi kimi görünsə də, əslində, həm də ümumtürk problemidir. Prezident İlham Əliyev keçən əsrin əvvəllərində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında Zəngəzur zolağının salındığını, bu bölgənin Azərbaycandan alınaraq Ermənistana birləşdirildiyini və bununla da böyük türk dünyasının coğrafi baxımdan parçalandığını bildirdi.

Dövlət başçısı Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyətə də toxundu və Ermənistanın destruktiv siyasəti üzündən bu məsələdə irəliləyiş olmadığını qeyd etdi. İlham Əliyev bütün qardaş ölkə başçıları qarşısında bəyan etdi: "Ermənistan 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir. İşğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi-mədəni irs, İslam abidələri və məscidlərimiz dağıdılıb və məhv edilib. Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir".

Valday görüşündə "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək özünün kəskin mövqeyini dünyaya bəyan edən Azərbaycan Prezidenti Türk Şurasının toplantısında bildirdi ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Türk Şurasının zirvə görüşlərinin yekun bəyanatlarında da dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək davamlı olaraq təsbit edilir.

Şübhəsizdir ki, türkdilli dövlətlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycan Prezidenti münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli həllini dəstəkləyən qardaş və tərəfdaş ölkələrə təşəkkürünü çatdırdı. Elə qardaş ölkələrin rəhbərləri də ədalətin bərpasını Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsində gördüklərini bildirdilər.

Görüşdə səslənmiş maraqlı fikirlərdən biri də türk dünyasının ağsaqqalı Nursultan Nazarbayevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk Dövlətləri Təşkilatına çevrilməsi ilə bağlı təklifidir. Təklif bütün üzv dövlətlər tərəfindən razılıqla qarşılandı. Nazarbayev dedi: "On il əvvəl Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında əsas sənədi təsdiq etdik. Beləliklə, əlaqələrimizin yeni, daha düşünülmüş və praqmatik mərhələsinə start verildi. Məhz bu yanaşma bizə indiki yubiley tədbirinə yaxşı nəticələrlə gəlməyə imkan verdi. Əvvəla, biz təşkilatın həm qlobal kontekstdə, həm də özümüz üçün zəruriliyini və aktuallığını sübut etməyə nail olduq. İkincisi, şura Özbəkistanın və Macarıstanın hesabına genişləndi ki, bu da bizim birgə salnaməmizdə yeni səhifə açdı. Üçüncüsü, ölkələr tərəfindən sanballı institusional struktur yaradıldı. Bu struktura TürkPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Ağsaqqallar Şurası, eləcə də Türk Ticarət-Sənaye Palatası daxildir. Dördüncüsü, şuranın siyasi və iqtisadi nüfuzu regional və beynəlxalq səviyyələrdə artır. Beşincisi, türk dünyası inteqrasiyasının konsepsiyası qəbul olunub. Həmin sənəd əsasən türkdilli ölkələrin çoxplanlı qarşılıqlı fəaliyyətini perspektivdə keyfiyyət cəhətdən daha yüksək səviyyəyə çıxaracaq".

Məhz bu kontekstdə Nazarbayev şuranın artıq kifayət qədər genişləndiyini bildirərək, onun təşkilat adlandırılmasını təklif etdi. Bununla yanaşı, o, "Türk baxışı-2040" proqramını hazırlamağı da tövsiyə etdi. Bu proqramda türkdilli birliyin uzunmüddətli məqsədləri və onlara nail olmaq yolları əksini tapmalıdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Şurasının BMT Baş Assambleyasında və İslam Əməkdaşlıq Təşkilatında müşahidəçi statusuna sahib olmasını arzu etdiyini bildirdi. Eyni zamanda, o, ulu əcdadımız Dədə Qorquddan misal gətirərək "Yaxşı dost yaxşı gündə çağırılanda, pis gündə isə çağırılmadan gələndir"- deyə bütün türk respublikalarını ağır gündə bir-birinə dəstək olmağa çağırdı: "Bəli, Türkiyənin terrora qarşı apardığı ölüm-dirim mübarizəsində siz qardaşlarımdan çox güclü həmrəylik gözləyirik. Əməliyyatın başladığı andan etibarən Türkiyəyə dəstək verən bütün liderlərə buradan bir daha təşəkkür edirəm. Üç yüz milyonluq türk dünyasındakı hər bir qardaşımın qəlbinin bizimlə döyündüyünü, ölkəmiz və qəhrəman ordumuz üçün dua etdiyini çox yaxşı bilirəm".

Türkiyənin dövlət başçısı gələn il Türkiyədə keçiriləcək səkkizinci zirvə görüşündə Türkmənistanın da tamhüquqlu üzv kimi şuraya qoşulacağını və bundan sonra altı dövlət – bir millət olacağımızı xüsusi qürur hissi ilə qeyd etdi.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***